**“Antiinhisar fəaliyyəti haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Antiinhisar fəaliyyəti haqqında ? Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 1, maddə 17; 2001, 6, maddə 360, 11, maddələr 676, 683, 12, maddə 736; 2003, 1, maddə 5; 2004, 2, maddə 57, 4, maddə 202; 2006, 12, maddə 1005; 2008, 2, maddə 49, 5, maddə 348, 6, maddə 462; 2010, 11, maddə 939) 18-ci maddəsinin 3-cü hissəsinin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

Təsərrüfat subyektləri cəriməni vaxtında ödəmədiyi və ya qismən ödədiyi halda, müvafiq icra hakimiyyəti orqanı cərimənin, yaxud onun ödənilməmiş hissəsinin məcburi qaydada ödənilməsi üçün tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir və bu qərarın məcburi qaydada icrası “İcra haqqında ? Azərbaycan Respublikasının Qanununa əsasən icra məmurları tərəfindən həyata keçirilir. ?.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 aprel 2015-ci il
1250-IVQD